**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№282/2** **5 dekabr 2016-cı il**

**"Beynəlxalq Audit Standartlarının tətbiqinə dair auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi" barədə**

Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər) və Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 2.4-cü "Beynəlxalq Audit Standartlarının tətbiqinə dair auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi" bəndində nəzərdə tutulmuş vəzifələrin icra olunması ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Beynəlxalq Audit Standartlarının tətbiqinə dair auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi" barədə hazırlanmış hesabat Şura üzvləri tərəfindən edilən irad və təkliflər nəzərə alınmaqla bəyənilsin (əlavə olunur).

2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, 1 (bir) ay müddətində "Beynəlxalq Audit Standartlarının tətbiqinə dair auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi" barədə hesabatın qısa icmalının Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini və Palatanın üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyası və Avropa Mühasiblər və Auditorlar Federasiyasına göndərilməsini təmin etsinlər.

3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, 2 (iki) həftə müddətində Auditorlar Palatası tərəfindən nəşr edilmiş “Daxili audit” dərs vəsaitinin son variantının PDF formatda Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**